# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ ÇARIZMIN MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNƏ QARŞI MÜBARİZƏ TARİXİNDƏN (1863-cü il Zaqatala üsyanının materialları əsasında)

**Ənvər Məmmədov**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*Aparıcı elmi işçisi, t.ü.f.d., dosent*
*mammadovanvar1969@mail.ru*

## CHARIZMIN IN THE NORTHWEST REGION OF AZERBAIJAN FROM THE HISTORY OF THE STRUGGLE AGAINST COLONIAL POLICY (based on the materials of the Zagatala rebellion of 1863)

**Anvar Mammadov**

**Summary**

Based on primary sources, archival documents and historical literature, the article examines the Zakatala uprising of 1863 against the forced Christianization of the local population and the colonial agrarian policy of tsarism in the northwestern region of Azerbaijan. Here the question of the participation of the Poles exiled to the district in the unrest is clarified.

**Key words:** Northern Azerbaijan, forced Christianization, uprising, Zakatala district, agrarian policy, Poles

## AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ ÇARIZMIN MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNƏ QARŞI MÜBARİZƏ TARİXİNDƏN (1863-cü il Zaqatala üsyanının materialları əsasında)

**Ənvər Məmmədov**

**Xülasə**

Məqalədə ilkin mənbə materialları, arxiv sənədləri və tarixi ədəbiyyatdan istifadə edilərək çarizmin Azərbaycanın şimal-qərb bölgəsində həyata keçirdiyi zorakı xristianlaşdırma və müstəmləkəçi aqrar siyasətinə qarşı baş qaldırmış 1863-cü il Zaqatala üsyanı araşdırılır. Burada eyni zamanda dairəyə sürgün olunmuş polyakların da həyəcanlarda iştirakı məsələsinə aydınlıq gətirilir.

**Açar sözlər:** Şimali Azərbaycan, zorakı xristianlaşdırma, üsyan, Zaqatala dairəsi, aqrar siyasət, polyaklar

## ИЗ ИСТОРИИ БОРЬБЫ ПРОТИВ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ ЦАРСКОЙ РОССИИ В СЕВЕРО-ЗАПАДНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА (ПО МАТЕРИАЛАМ ЗАГАТАЛЬСКОГО ВОССТАНИЯ 1863 Г.)

**Энвер Маммедов**

**Аннотация**

В статье на основе первоисточников, архивных документов и исторической литературы рассматривается Загатальское восстание 1863 года против насильственной христианизации местного населения и колониальной аграрной политики царизма на северо-западном регионе Азербайджана. Здесь же выясняется вопрос об участии сосланных в округ поляков в волнениях.

From the history of the struggle against the colonial policy of tsarist Russia in the northwestern region of Azerbaijan (based on the materials of the Zakatala uprising of 1863)

**Ключевые слова:** Северный Азербайджан, насильственная христианизация, восстание, Загатальский округ, аграрная политика, поляки

**Giriş.** Çarizmin Zaqatala dairəsində yeritdiyi müstəmləkəçilik siyasəti bölgənin sosial-iqtisadi, siyasi həyatına ciddi təsir göstərmiş və burada daimi həyəcanlı vəziyyətin mövcud olmasına səbəb olmuşdu. Rus idarə orqanlarının dairəni iqtisadi boyunduruğa salmaq, onun müqavimətini qırmaq

istiqamətində məqsədyönlü şəkildə yeritdiyi siyasəti nəticədə əzilən əhalinin haqlı narazılığına və 1863-cü ildə güclü üsyana səbəb olmuşdu.

Bu barədə R.A.Fadeyevin məlumatları xüsusilə maraqlıdır. O, yazır ki, knyaz Şalikovun xristianlığı yaymaq məqsədilə gördüyü tədbirlər dairə rəhbərliyinin hərisliyi üçün geniş meydan açmış, onun müsəlmanlar arasında xristianlığı yaymaq cəhdi bunu icra edənlər tərəfindən çoxsaylı sui-istifadə hallarına yol açmış və bu, partlayışı tezləşdirmişdir. Məscidlərin təmiri üçün icazə istəyən əhalidən rüşvət tələb edən zemstvo hakimiyyətinin hərəkətləri də onlardakı bu əminliyi gücləndirir. Onun sözlərinə görə əhalini daha çox hiddətləndirən xristianlığı qəbul edərək cəzadan xilas olmuş cinayətkarların özbaşınalıqları idi [7, s. 428]. O, bütün bunları yekunlaşdıraraq üsyanın səbəbləri barədə yazır ki, knyaz Şalikovun özünə əminliyi (o, əmin idi ki, yerli əhali içərisində kifayət qədər hörmətə malikdir və əhali ona qarşı qalxmaz – Ə.M.), onun idarəsinin üzaqda yerləşməsi (onun idarəsi Gürcüstan ərazisindəki Sasxenisidə yerləşirdi – Ə.M.), ağılsız və məqsəd-siz dini təbliğat, dairənin hərisliklə idarə olunması, dairə əhalisi üçün bu idarəçilik formasının yeni olması kimi hallar birlikdə götürüldükdə dairə əhalisini kəskin şəkildə qıcıqlandırırdı və bu, şübhəsiz ki, partlayışın meydana çıxmasına səbəb olmuş, onu sürətləndirmişdi [7, s. 429].

Çarizmin bu siyasətinə qarşı dairədə 1863-cü ilin yayına doğru kütləvi xalq mübarizəsi qalxır. İlk əvvəl gizlində xristian missionerlərini öldürməklə fəaliyyətə başlayan bu hərəkata yüksək dini təhsil almış məşhur carlı qaçaq Burca Əli, Zəngi Əfəndi və humbetli Tintin Mahama başçılıq edirdilər. Onlar həmçinin Dağıstan və Çeçenistanda geniş yayılmış və 1863-cü il Zaqatala üsyanının bir növ ideoloji əsasını təşkil edən, müsəlmanları kafirlərə qarşı mübarizəyə çağıran “Zikr” təlimi-nin bu bölgədəki ən nüfuzlu nümayəndələri idilər. 1863-cü il Zaqatala üsyanının rəhbərlərindən ol-muş carlılar Burca Əli və Zəngi Əfəndi, eləcə də hümbetli Tintin Mahama idilər. Üsyana ümumi rəhbərliyi həmin vaxtlar çarizmin yerli hakimiyyət orqanları tərəfindən təzyiqlərə məruz qalan çar ordusunun keçmiş zabiti Hacı Murtuz edir. Yuxarı Dağıstan vilayətinin rəisi knyaz Şalikov, Zaqatala dairəsinin rəisi Tarxan Mouravov, eləcə də Balakən məntəqəsinin rəisi knyaz Vaçnadze Hacı Murtuzun xristianlığı qəbul edəcəyi təqdirdə həmkəndlilərinin də onun ardınca gedəcəklərinə ümid etdiyindən ona bir neçə dəfə təkidlə oğlu Dibirlə birlikdə xristianlığı qəbul etməyi təklif etmişdilər. [3, v. 3-4]. Zaqatala dairəsinin rəisi Tarxan Mouravov isə Hacı Murtuzun 9 nəfər yaxın adamı ilə birlikdə Rusiyanın daxili quberniyalarına sürgün olunması barədə ərizəylə yuxarı komandanlıq qarşısında məsələ qaldırır [3, v. 7 arxa]. Bütün bunlardan cana doyan Hacı Murtuz özünün Salbandakı evinə çəkildiyi bir vaxtda, 1863-cü ilin martında onun yanına carlı qaçaq Burca Əli və Zənki Əfəndi gəlirlər. Onlar Hacı Murtuza artıq çıxışa hazır üsyançılara rəhbərlik etməyi təklif etdikdə o, çox həvəslə bu işə razı olur [3, v. 4 arxa].

Üsyanın ən fəal təşkilatçıları və rəhbərləri carlı Burca Əli, Zəngi Əfəndi, talalılar Əli Ağa, Dibir Əlibəy oğlu, çar ordusunun zabitləri olmuş balakənlilər Hacı Murtuz, Yunker Əli, qabaqçöllülər ciddi hazırlıq görülmüş, onun təşkilatçılarından biri, İmam Şamilin müridi olmuş Murtuzəli qonşu bölgələri gəzərək onları yerli əhali ilə eyni vaxtda çarizmə qarşı üsyana başlamağa razı sala bilmişdi [5, s. 211]. Hacı Murtuz həmin vaxtı Balakəndə yaşayan Dağıstanın Karata icmasından olan molla Abdulsalam Hacını da qonşu dağlı icmaları üsyana qoşulmağa çağıran müraciətlə Dağıstana göndərmişdi. Üsyançı qüvvələrin toplantı yeri Göyəm kəndi elan olunmuşdu [3, v. 4 arxa].

İyunun 5-də üsyan rəhbərlərinin ümumi yığıncağında Hacı Murtuz imam elan olunur [7, s. 444]. 1863-cü il Zaqatala üsyanının ən mühüm əməliyyatlarından biri rus qarnizonunun yerləşdiyi qalaya olan hücum olmuşdur.

İyunun 6-ı axşama yaxın xeyli kömək almış qala qarnizonu artıq üsyançıların üzərinə həmlələr etməyə başlayır. Xalq mərdliklə vuruşurdu. Ancaq silah-sursatla yaxşı təchiz olunmuş rus hərbi hissələri ilə döyüşdə uğur qazanmaq çox çətin idi. Hacı Murtuzun böyük dəstə ilə Balakənə çəkilməsi, Zəngi Əfəndinin yaralanması, Dağıstandan gözlənilən köməyin gəlməməsi qala ətrafındakı üsyançı dəstələrin məğlubiyyətinə səbəb olur. Üsyançılara qarşı cəza tədbirlərinin görülməsi barədə Peterburqdan alınmış göstərişdə deyilirdi ki, döyüşlərdə iştirak etmiş bütün üsyançılar, üsyanın səbəbkarlarının ailələri həmişəlik Sibirə sürgün edilsin, onların evləri uçurulsun, bağları qırılsın, torpaqları müsadirə olunsun, dəymiş zərərin ödənilməsi üsyanda iştirak etmiş

kəndlərin əhalisinə həvalə edilsin [1, s. 63].

Üsyan yatırıldıqdan sonra onun iştirakçılarına amansız divan tutulur. Üsyanın ən fəal təşkilatçılarından 19 nəfəri dar ağacından asılır. Mindən yuxarı adam ailəsi ilə birlikdə sürgün edilir. Əhalinin bir hissəsi isə təqibdən yaxa qurtarmaq üçün Dağıstan və Türkiyəyə mühacirət etməyə məcbur olur. Hacı Murtuz isə dağlara çəkilərək bir müddət gizlin həyat tərzinə keçir. Həmin ilin iyulun 20-dən 21-nə keçən gecə meşədə podpolkovnik knyaz Ratiyevlə danışıqlar zamanı Hacı Murtuz yaxınları və qohumlarına qarşı olunan təzyiqlərə son qoyulacağı təqdirdə ayın 26-dan gec olmayaraq təslim olacağını bildirsə də o, bir müddət dağlarda gizlənmişdi [3, v. 6 arxa]. Hacı Murtuzun başı üçün yeni üsyanın hazırlanmasından qorxuya düşən Qafqaz komandanlığı 3 min rubl pul qoysa da fevralın 8-də o, qohumları və həmkəndlilərinə qarşı edilən təzyiqlərə son qoymaq üçün könüllü olaraq dairə rəisi Stoletova təslim olur. Tiflisə, canişinin yanına göndərilən Hacı Murtuz Rusiyanın daxili quberniyalarına sürgün edilməklə cəzalandırılır [6, s. 25].

Zaqatala üsyanıyla əlaqədar bir neçə ay davam edən istintaqın materiallarından aydın olur ki, üsyan Türkiyənin təsiri ilə baş vermişdi. Hətta Zaqatala üsyançılarının Qafqaz polyakları ilə əlaqədə olması faktı da üzə çıxır. Çünki Qafqaza sürgün olunmuş polyakların bir hissəsi Zaqatala dairəsində yerləşdirilmişdilər. Sənədlərdə üsyan zamanı dairədə yaşamış istefada olan zabit, polyak Dombrovskinin at saxlayanlarla sıx əlaqədə olduğu göstərilirdi [4, s. 186]. Bununla bərabər istefada olan polyak zabitləri Vladıçanski və Rujiçiski, eləcə də poruçik, yol əlaqə mühəndisi Yankeviçin üsyançıların məhşur dəstə başçılarından olması barədə hətta hadisənin şahidləri məlumat verirlər [4, s. 186-187]. Hətta üsyançılarla Qafqaz polyakları arasındakı əlaqələrin yoxlanılması barədə çarın xüsusi göstərişi olmuşdur [7, s. 461].

Üsyanın yatırılmasından sonra Qafqaz komandanlığı əhalini sakitləşdirmək məqsədilə dairədə hakimiyyəti dəyişməyə məcbur olur. Yeni təyin olunmuş dairə rəisi Şelkovnikov Qafqaz komandanlığının göstərişiylə üsyanın baş vermə səbəblərini araşdıraraq xüsusi arayiş hazırlayır. O, əhalinin üsyana qalxmasının səbəblərini göstərərkən yazırdı ki, Qafqaz müharibələri zamanı bizim ordumuzda xidmət etmiş müsəlman zabitləri müharibənin bitməsiylə artıq gərəksiz hesab olunaraq yerli hakimiyyət orqanları tərəfindən hər addımbaşı aşağılanır, onlarla adi çoban səviyyəsində rəftar olunur, hər hansı müsəlman mayor rotmistri yerli əhali tərəfindən rusların agenti hesab olunan, məntəqə dəftərxanasında adi tərcüməçi, yaxud katib işləyən erməni və gürcü qarşısında alçalmaya məruz qoyulurdu. Müsəlman zabitinə də, adi çobana qarşı olan rəftar və münasibət eyni idi. Müsəlman ruhaniləri alçaldıcı, hüquqsuz vəziyyətə gətirilmiş, məmurlar arasında rüşvətxorluq baş alıb gedirdi [3, v. 2].

Qafqaz ordularının baş komandanı knyaz Mixail Nikolayeviçin hərbi nazir general-adyutant Milyutinə göndərdiyi 1863-cü il 14 iyul tarixli məktubunda Zaqatala üsyanının sadalanan əsas səbəbləri ilə yanaşı aşağıdakılar da göstərilirdi: “1. Zaqatala dairəsinin idarəçilik sisteminə daxil olan mülki idarəçiliyin xüsusiyyətləri bu dairənin öz əvvəlki döyüşkənliyini saxlamış insanların nə təsəvvürlərinə, nə də ehtiyaclarına uyğun deyildir; 2. Xristianlığı yaymaq istəyindən bəzən xristianlığı qəbul edən cinayətkarların təqibinin dayandırılması, valideynlərinin icazəsi olmadan uşaqların, ərlərinin icazəsi olmadan qadınların xristianlığı qəbul etmələrinə razılıq verməsi və bu kimi digər düzgün olmayan həkətlərə yol verən general-mayor Şalikovun son dərəcə səhv hərəkətləri; 3. Aşağı hakimiyyət orqanlarının öz vəzifələrindən sui istifadəsi. Gələcək dövr üçün bu səbəblərin aradan qaldırılması üçün mən Zaqatala dairəsində Dağıstan vilayətinin dairələrinin nümunəsində idarəçilik forması tətbiq etməyi və onu birbaşa Baş Qərargaha tabe etməyi təklif edirəm” [2, v. 26 arxa].

Üsyanın məğlubiyyətlə başa çatmasına baxmayaraq onun Azərbaycan xalqının çar Rusiyasının müstəmləkəçi siyasətinə qarşı azadlıq hərəkatı tarixində xüsusi yeri olmuşdur.

**İstifadə olunmuş mənbə və ədəbiyyat**

1. Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Bakı, 2006.

2. Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 416, siyahı 3, iş 1200.
3. Gürcüstan Mərkəzi Tarix Arxivi, fond 416, siyahı 3, iş 1270.
4. Бороздин К. Лезгинское восстание в Кахетии в 1863 г. Русский вестник, т. 210, Спб, типография товаришнства “Обшественная польза”, 1890, sentyabr, №9, с. 172-192.
5. Гаджиев В.Г. Новый источник по истории Дагестана. Из истории дореволюционного Дагестана (сб. научных трудов), Махачкала, изд-тво Даг. Филиал АН СССР, 1976, 219 с.
6. Магомедов Р.М. Восстание горцев Дагестана в 1877г. Махачкала, Даг. гос. изд. Типография им. Калинина, 1940, 80 с.
7. Фадеев Р.А. О Закатальском восстании 1861-1862 годов. Государственный порядок: россия и Кавказ. Москва, Институт русской цивилизации, 2010. с. 416-462.